Qurumun əsas məqsədi təhsil ocaqlarında zərərli informasiyaya çıxışı məhdudlaşdırmaqdır. Şuranın fəaliyyətini Təhsil Nazirliyinin nəzdindəki Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi əlaqələndirəcək.

Şuranın tərkibinə valideyn, müəllim, mədəniyyətşünas, habelə Dövlət Proqramının reallaşdırılmasında Təhsil Nazirliyinin tərəfdaşları olan “Mədəd” humanitar təşkilatı, ULTRA şirkəti, Azedunet təşkilatı, Microsoft Azərbaycan şirkəti, Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşları daxildir.

Qurumun əsas fəaliyyət istiqamətləri təhsildə məzmunun filtrasiyası və tədris ocaqlarında təhsil alan məktəblilərin və tələbələrin zərərli informasiyaya çıxışını məhdudlaşdırmaq üzrə tövsiyələr və praktik təkliflər hazırlamaqdır.

Bu prosesi təmin etmək üçün şura Böyük Britaniyanın, ABŞ-ın, Rusiyanın və Estoniyanın təcrübəsindən geniş istifadə edəcək.

Qeyd edək ki, hazırda ABŞ-da geniş tətbiq olunan veb-senz Filtrasiya Şurası tərəfindən nəzərdən keçirilir. Bu texnologiya internet-axtarış sistemlərində müxtəlif dillərdə zərərli informasiyanın axtarışını məhdudlaşdırır və uşaqların zərərli məzmundan maksimal müdafiəsini təmin etməyə imkan verir.